DOI: 10.36719/2663-4619/59/89-92

**Kəmalə İbrahim qızı Əliyeva**
k.aliyevaugur@gmail.com
Lənkəran Dövlət Universiteti

# TƏLİM PROSESİNDƏ AUTİZMLİ UŞAQLARIN ÖYRƏDİLMƏSİNİN İMKAN VƏ YOLLARI

**Xülasə**

"Təlim prosesində autizmli uşaqlara öyrətmənin imkan və yolları" məqaləsində məktəbəqədər və kiçik məktəbli yaş dövründə öyrətmə texnikalarının müxtəlifliyindən və bu müxtəlifliyin uşağa fərdi yanaşmanın düzgün təşkil olunmasına kömək etməsindən bəhs olunur. Pedaqoqun düzgün dəyərləndirmə və düzgün proqram seçməsi uşağın daha tez mənimsəməsinə və vaxta qənaət etməsinə gətirib çıxarır. Autizmli uşaqların öyrənməsini sürətləndirəcək və valideynlərin belə rahatlıqla istifadə edə biləcəyi metodlar məqalədə geniş təsvir olunmuşdur.

***Açar sözlər:*** *təlim, oyun, dəyərləndirmə, davranış pozuntusu, autizm, inkişaf, metod, bacarıq, proqram, Doman metodu, Son Rise proqramı*

## The possibility and the ways of teaching the autistic children in the instruction process

**Summary**

The article named "The possibility and the ways of teaching the autistic children in the instruction process" deals with the diversity of the teaching techniques and its help to the proper organisation of an individual approach to a child in the preschool and little school age period.

Choosing the right teaching method and assessment program by the teacher leads to a quick comprohension of the child and time saving. The methods wich the parents can even use easily, will accelerate the learning processes of autistic children are broadly described in the article.

***Key words****: Instruction, game, assessment, behavioral disorder, autism, development, method, ability, program, Doman method, The Son Rise Program*

Autizmli uşaqların psixi inkişafının qənaətbəxş olmaması onların öyrənmə prosesində müəyyən çətinliklər yaradır. Bu prosesə davranış pozuntuları da əlavə edildikdə daha ciddi vəziyyət yaranır. Pedaqoq həm davranış pozuntularını aradan qaldırmalı, həm də yeni məlumatlar öyrətməlidir.

İnkişaf ləngiməli uşaqlara fərdi yanaşılmalıdır ki, nəticələr qəmaətbəxş olsun. Xüsusi məktəblərdə sinifdə uşaq sayının on nəfərə qədər olmasını nəzərə alsaq pedaqoq üçün bu vəziyyəti düzgün idarə etmək və şagirdlərə fərdi yanaşmanın vacibliyi və çətinliyi gündəmə gəlir. Məlumdur ki, bu siniflərdəki şagirdlər əvvəlcədən tibbi komisiyadan keçir və buradakı mütəxəssis heyəti tərəfindən qiymətləndirilərək siniflərə bölüşdürülür. Buradakı qiymətləndirmənin düzgün aparılması gələcəkdə pedaqoq üçün uğurlu dərs şəraiti yaradır.

Nəzərə alsaq ki, uşaqlar məktəbdən əvvəl hər hansı reabilitasiya mərkəzində və ya fərdi şəkildə psixoloq, pedaqoq, loqopedlə məşğul olur. Əgər bu periodda uşaqlar üçün tutulan hədəf proqramların yaşa və inkişafa uyğunluğu düzgün tərtib olunarsa irəli yaşlarda uşaqların məktəbə və məktəb proqramına adaptasiyası uğurlu olacaq.

Məktəbəqədər dövrdəki təlim prosesi necə təşkil olunmalı? Bu dövrdə əvvəlcə uşaq psixoloji dəyərləndirmədən keçməlidir. Bu dəyərləndirmə də uşağın psixi inkişafı, nitqi, sosial bacarıqları, özünə qulluq bacarıqları qiymətləndirilməlidir. Alınan nəticələrə uyğun hədəf təlim proqramı fərdi şəkildə tutulmalıdır. Diqqət etmək lazımdır ki, uşağın yaşı yüksək olsa belə yuxarıdakı sahələr daha aşağı yaş qrupuna uyğun gəlirsə proqram hal hazırki yaşa uyğun olaraq deyil, qiymətləndirmə nəticələrinə uyğun gələn yaşa uyğun tutulmalıdır. Uşaqlarda ciddi davranış pozuntuları (tüpürmə, saç yolma, itələmə vəs) təlim mütləq fərdi şəkildə təşkil olunmalıdır. Uşaqlar sosial bacarıqlara mənimsədikdən və sadə əmrlərə tabe olduqdan və sadə bilikləri mənimsədikdən sonra qrupa daxil edilə bilər əks halda qrupu idarə etmək çətinləşəcək və uşaqlar üçün nəzərdə tutulmuş proqramı mənimsətmək çətinləşəcək. Əvəzinə uşaqlar bir birindən davranış pozuntuları öyrənəcək.

Məktəbəqədər yaş dövründəki təlim prosesində valideynlər xüsusilə marifləndirilməlidirlər. Çünki məhz bu dövr uşağın inkişafının sürətli getdiyi dövrdür. Yaxşı olar ki, prosesə valideynlərdə qoşulsun. Valideynlər üçün nəzərdə tutulmuş xüsusi proqramlar var ki, onlar haqqında valideynlər məlumatlandırılmalı və evdəki təlim prosesini yaratmağa onlara kömək edilməlidir. Valideynlər üçün dizayn edilmiş təlim proqramlarından biri The Son Rise proqramıdır. Proqram autizm və digər inkişaf ləngiməsi olan uşaqlar üçün nəzərdə tutulub.

Barry Neil Kaufman və Samaharia Lyte Kaufman tərəfindən autizmli övladı Raul üçün yaradılıb. Bu proqramın əsas şüarı onun aləminə daxil olub onunla birlikdə oranı tərk etməkdir. Elə şüardan da aydın görünür ki, burada qadağalar, olmazlar deyil, əsasən uşağın istəkləri nəzərə alınaraq onunla ünsiyyət quraraq prosesi ələ almaqdır. Autizmli uşaqların sterotipik hərəkətləri (əl çırpma, yerində yellənmə və s kimi) çox olur. Bu davranışlar isə öyrənmə prosesinə mane olur. Bəzən pedaqoqlar uşağa bu hərəkətləri etməyi müxtəlif şəkildə qadağa edir. Bu təlimin üstünlüyü isə aynalama metodu ilə onların diqqətlərini çəkmək və bu kimi hərəkətlərin azalmasına nail olmaqdır. Bu təlimdən alınan nəticələrin yüksəkliyi proqramı daha da məhşur edir.

Xüsusilə başlanğıcda, daha erkən yaş dövrlərində təlim prosesinə yeni başlanılan dövrdə bu proqramın əhəmiyyəti vurğulanmalıdır. Buradakı tapşırıqlarla daha tez göz kontakı almaq, adına reaksiya verməyi, topla oyun oynamağı öyrətmək mümükündür. Bu keyfiyyətlərin yaranması isə obrazlı desək autizm pərdəsinin yırtılması deməkdir. Nəticədə uşaq təlim prosesinə daha effektiv qoşulacaq və sosial bacaraıqları inkişaf etmiş olacaq. Bu proqramda əsas məqsəd uşağı yormadan, onun şəxsi sahəsinə daxil olub onu narahat etmədən təlimə qoşmaqdır. Bu cür yanaşma valideynidə yormayacaq, həm uşaq, həm də valideyn prosesdən zövq alacaq. Başlanğıcda göz kontaktı, gəl, al, ver, get, aç, bağla kimi sadə əmrləri baş düşmək və icra etmək, adına reaksiya vermək, özünü tanımaq, bədən üzvlərini göstərmək və sadə sosial oyunları oynaya bilmək olduqca vacibdir. Bu bacarıqları həm pedaqoq, həm valideyn birlikdə çalışarsa zamana qənaət etmiş olar. Pedaqoq valideyni məlumatlandırmalıdır ki, uşaq nə qədər balaca olarsa olsun özünə aid işləri görməsinə təşviq edilməlidir. Yalnız bu halda uşağın inkişafını sürətləndirmək və inkişafın yaşauyğunluğunu bərpa etmək olar.

Məktəbəqədər yaş dövründə pedaqoqların ən çox isifadə etdiyi təlim proqramlarından biri ABA (Tətbiqi Davranış Analizi) proqramıdır. Bu proqram mükafatlara əsaslanaraq öyrənməni nəzərdə tutmuşdur. Məhşur psixoloq F.Skinnerin Operant Öyrənmə nəzəriyyəsində deyildiyi kimi orqanizm hər hansı davranışı icra edir və verilən stimuldan razı qalırsa həmin davranışı yenidən icra etməyə davam edir.

Tətbiqi Davranış Analizi metodu istənilməyən davranışı azaltmağı, bunun yerinə uyğun davranışları qoymağı təşkil edən metoddur. Bu metod nəticəsində ortaya çıxan nəticələri valideynə izah edərək onların hansı yanaşmasının bu kimi hallara səbəb olduğunu onlara izah etməli bunun nəticəsindədə bu kimi davranışlar ümumiləşmədən yəni çoxalmadan aradan qaldırılmaqdadır. Bu metod xüsusilə təlim prosesinə mane olan davranış pozuntularını aradan qaldırmaq üçün unikaldır. Pedaqoqların cədvəl olaraq tərtib etdiyi və valideynə doldurmaq üçün verdiyi davranış öncəsi, davranış anı və davranış sonrası cədvəli məhz bu proqramın bizə verdiyi metoddur. Proqramın əsas məqsədi isə uyğun olmayan davranışların azaldılması, alternativ davranışların yardaılması, yeni bacarıqların öyrədilməsi və yaşıdları ilə birlikdə məktəb təliminə hazırlaşmasıdır.

Bu dövrdə pedaqoqların tətbiq etdiyi metodlardan biri də TEACCH metodudur. Bu metod Amerikada North Corolina Universitetində Eric Schopler tərəfindən yaradılıb. Bu metodun maraqlı tərəfi odur ki, burada uşağın ətrafa uyğunlaşması deyil, ətrafın uşağa uyğunlaşması nəzərdə tutulur. Bu poqram autizmli uşaqların digər insanlardan asılılığını minumuma endirmək üçün təşkil olunub. Burada vacib olan üzərində çalışdığımız uşağın xoşuna gələn və gəlməyən oyunları, fəaliyyətləri, maraqlarını (rəqəmlərə, rənglərə, maşınlara, musiqiyə, planşetə və s) müəyyən etməkdir. Buradakı dezavantajları avantaja çevirmək TEACCH proqramının əsas prinsiplərindəndir. Bu proqram təlimdə öz proqramını qurmaq üçün PEP-R dəyərləndirməsindən istifadə edir. Bu test çox maraqlı şəkildə tərtib olunmuş testdir. Beləki testdə təlimatları dəyişdirmək mümkündür və hətta bir dəfə tapşırığı nümunə ilə göstərməkdə olar. Bu xüsusiyyətlər PEP-R testini digər testlərdən fərqləndirir. İnkişaf gerilikləri üçün nəzərdə tutulmuş və 12 yaşına kimi uşaqlar üzərində tətbiq olunur. Nəticədə uşağın təqlid, əl göz kordinasiyası, böyük motor bacarığı, koqnitiv inkişafı dəyərləndirilə bilər. Yaxşı olar ki, dəyərləndirmə prosesin əvvəlində, ortasında, sonunda edilsin. Belə olduğu halda pedaqoq inkişafın necə getdiyini görmüş olacaq özü üçün tədbirlər almış olacaq.

Nəzərə almaq lazımdır ki, məktəbəqədər yaş dövründə aparıcı fəaliyyət oyundur, buna görədə bu yaş dövründə təlim proqramını qurarkən ora oyunu əlavə etməyi unutmaq olmaz. Oyun uşağın həm əyləncəsi, həm də öyrənməsi üçün olduqca vacibdir. Oyun prosesində istifadə olunan oyuncaqların funksianallığından tutmuş, sosial faktorların əlavə edilməsinə qədər pedaqoq məsuliyyətlidir. Buna görə də yaşa və inkişafa görə oyunların və oyuncaqların istifadəsini bilmək olduqca vacibdir. Əgər uşaq oynamağı öyrənə bilirsə onun yaşıdları ilə ünsiyyəti də alınır. Bildiyimiz kimi daha irəli yaş dövrlərində qaydalı oyunlar olduğu üçün autizmli uşaqlar üçün çətinlik yaranır.

Oyun bacarıqlarının inkişaf edə bilməsi üçün isə uşaq üçün tutulmuş hədəf proqramda təqlid bacarıqlarının çoxluğuna xüsusilə fikir vermək lazımdır. Əks halda oyun oynamağı uşağa öyrətmək mümkün olmayacaq.

Kiçik məktəbli yaş dövründəki təlim prosesinin uğurlu olması erkən yaşda qurulan hədəf proqramlar və aparılan dəyərləndirmələrin qənaətbəxş olmasından olduqca asılıdır. Təəsüflər olsun ki, bəzən valideynlər uşaqları 5, 6 yaş dövrünə kimi heç bir təlim prosesinə cəlb etməyib. Müəyyən səbəblərə inanıb təlimdən yayınmışlar. (atasıda gec danışmışdı, zamanla özü öyrənəcək və s.) Artıq kiçik məktəbli dövründə məktəb yaşı çatdığına görə və uşaqda heç bir irəliləyişin olmadığına görə narahat olmağa başlayan valideynlər uşaqlarının təlim prosesini xeyli gecikdirmiş olurlar. Belə olduqda nə etməli? Uşağın yaşından asılı olmayaraq bilik və bacarıq səviyyəsinə uyğun proqram tərtib olunmalıdır. Əgər uşaq dəyərləndirmədən keçərkən nəticələr qane edirsə artıq məktəb hazırlığı üçün plan tutula bilər.

Kiçik məktəbli yaşı dövründə uşaqlar da hərf tanıma, oxuma, oxuduğunu və dinlədiyini anlama, rəqəmləri bilmə, sadə riyazi bacarıqları hesablama, saatı bilmə, pul vahidini tanıma və kiçik məbləli alış veriş etmə kimi bacarıqları uşaqlar bilməlidirlər. Bu bacarıqların öyrənilməsi uşağın gündəlik həyatını asanlaşdıracaq, onu başqalarından asılı olmağa qoymayacaq. Yuxarıda sadalanan bacarıqların öyrədilməsi xüsusi yanaşma iləmi olmalıdır? Əlbəttə, nəzərə almaq lazımdır ki, biz xüsusi qayğıya ehtiyacı olan uşaqla çalışırıq, onun öyrənmə və öyrəndiklərini tətbiq edə bilmə bacarıqları yaşıdlarından həm fərqli, həmdə geridir. Bu bacarıqları öyrətmək üçün hansı metodlardan istifadə edə bilərik?

Sadə riyazi bacarıqların öyrədilməsi məhşur Touch Math metodu ilə çox sürətli formada öyrədilə bilər. Bu metod ibtidai sinif müəllimi Janet Bullok tərəfindən 1975-ci ildə yaradılıb. Proqram öz ideyasını J.Peagetin və Brunerin nəzəriyyəsindən götürüb. Beləki hesab öyrənmək üçün əvvəlcə uşaq rəqəmləri, üstəgəl, çıxma, bərabərlik işarələrini, irəli və geriyə saymanı bilməlidir. Bunları bildikdən sonra bu metoun köməkliyi ilə toplama, çıxma, vurma, bölmə əməlləri öyrədilə bilər. Metodun əsası saymaqdan ibarətdir, uşaq sayaraq hesablayır. Bu metod da uşaq rəqəmlərin xüsusi nöqtə yerlərini bilməli və buna uyğun formada hesablamanı aparmalıdır. Metodun üstün çəhəti ondan ibarətdir ki, təkrarlar nəticəsində uşaq artıq rəqəmlərin üzərinə nöqtə qoymadan sürətli formada hesablaya bilir. Bu zaman isə ətrafdakılar heç bir fərqlilik görmədən uşağın hesablamanı bacardığını görür.

Oxu bacarıqlarının öyrədilməsi zamanı erkən yaşlarda uşaqlara öyrətdiyimiz eyniləşdirmə bacarığının köməyi ilə baş verəcək. Əgər uşaq eyniləşdirmə bacarığını bilirsə hərfləri olduqca tez öyrənə biləcək. Hərfləri tanıdıqdan sonra isə heca və kəlimələri oxuma mərhələsinə start verilməlidir.

Oxu bacarıqlarında istifadə olunan metodlardan biridə Glenn Doman metodudur. Bu metodla hətta erkən yaşlarda belə oxumaq mümkündür. Bu ənənəvi hecalayaraq öyrənmə metodu deyil. Əvvəlcə Doman bu metodu beyni zədə görmüş, öyrənməsi çətinləşmiş uşaqlar üçün nəzərdə tutmuşdur. Daha sonra metodun funksionallığını görüb bütün uşaqlara bu yolla oxumanın hətta erkən yaş dövründə mümkün olduğunu bildirmişdir. Doman bildirdi ki, ilk altı yaş dövrü əslində bir dahinin yarandığı dövrdür.

Doman metodu oxuma ilə danımağı öyrənmənin eyni olduğunu iddia edir. O, bildirir ki, həm oxuma, həm də danışma zamanı beyində eyni kimyəvi proseslər gedir. Uşağa öyrədiləcək əşya və əşyanın adı göstərilir və beləliklə beyinin hər iki yarım kürəsi eyni vaxtda qıcığa məruz qalır. Öyrədəcəyiniz kəlimələr uşağın gündəlik həyatında çox istifadə olunan kəlimələr olmalıdır. Əvvəlcə tək hecalı kəlimələr seçilməlidir. Yaxşı olar ki, qruplaşdırma aparılaraq öyrədilsin. Yəni ailə üzvüləri, meyvələr, yeməklər, geyim və s formada. Kəlimələr kiçik hərflə, aydın və qırmızı rəngdə yazılmalı. Diqqət etmək lazımdır ki, eyni hərflə başlayan iki kəlimə ard - arda sıralanmamalıdır. Bu metodla oxumanı öyrədərkən digər proqramlarda olduğu kimi uşağa təzyiq etmədən, dərsə əyləncə qataraq və 35 - 45 dəqiqəlik dərs nəzərdə tutularaq keçilməlidir. Əvvəlcə isimlər, daha sonra felləri və sifətləri əlavə etmək olar. Sonra isə qısa cümlə oxumaq mərhələsinə çatırıq. Bu mərhələdə təxminən 5 sm böyüklüyündə hərflər yazılmalı, bir isim və bir feil istifadə olunmalıdır. Məsələn, baba gəlir. Bu tipli kartlarla təxminən on sıhifədən ibarət kitab hazırlayırıq və gün ərzində iki, üç dəfə uşağa oxuyuruq. Bunları sərbəst şəkildə icra etdikdən sonra isə qarışıq cümlələrə keçə bilərik. Xüsusi ilə qeyd etmək lazımdır ki, əgər pedaqoq ənənəvi oxuma yolu ilə deyil, məhz Glenn Doman metodu ilə oxumanı öyrətməyi seçirsə o zaman kiçik məktəbli yaş dövrünü gözləməyə bilər. Elə məktəbəqədər yaşdan oxumağı öyrətməyə başlaya bilər.

Yuxarıda sadalanan bütün metodlar təlim prosesində bizə yardım edən vasitələrdir. Xüsusi təhsildə belə öyrənmə texnikalarının çox olması bizə uşaqlar üçün fərdi yanaşmanı təşkil etməyə imkan verir.

Yaxşı olar ki, bu metodlarla yanaşı pedaqoq öyrənmə nəzəriyyələrindən də istifadə edə bilsin. Çünki burada istifadə edilən texnikalar olduqca vacibdir. Öyrədilən məlumatın praktikliyi nəzərə alınmalıdır ki, uşaq bunu tez tez tətbiq edərək təkrar edib öyrənsin.

Məqalənin əvvəlində qeyd olunan dəyərləndirmələrdən başqa pedaqoq öyrənmə nəzəriyyəsi əsasında belə özü üçün dəyərləndirmə və proqram tərtib edə bilər. Məsələn, Piaget öz nəzəriyyəsində yaş dövrləşməsindən bəhs etmiş və aşağıdakı yaş mərhələrənin olduğunu bildirmişdir .

1. Sensomator (0 -3 yaş)

2. Əməliyyat öncəsi dövr (3- 6 yaş)
3. Konkret əməliyyatlar dövrü (6 - 11 yaş)
4. mücərrəd əməliyyatlar dövrü ( +11 yaş)

Yaş dövrləşmələrinin xüsusiyyətlərini bilərək dəyərləndirmə aparmaq mümkündür. Bu dövrləşməyə əsasə Piaget bu tipli misal həllinin 3+5 = 8 və ya 5 +3 = 8 hər ikisinin eyni olduğunu uşağın məhz 7 yaşından sonra başa düşəcəyini bildirir. Yəni öyrədəcəyimiz biliklərdə nə əvvələ qaçmamalı, nə də geridə qalmamalıyıq.

**Nəticə**

Pedaqoqun müxtəlif metodlardan xəbərdar olması və onları iş prosesində tətbiq edə bilməsi uşağın öyrənməsi üçün münbit şərait yaradacaq. Beləki ola bilər ki, hər hansı metod uşaq üçün faydalı olmaya bilər, o zaman pedaqoq pedaqoji ustalıq göstərərək yeni vasitələrdən istifadə etməlidir. Məqlə də bir sıra effektiv metodlar təsvir olunmuşdur.

**Ədəbiyyat**

1. K.Rivera, K.McDaniel, D.Bender. Healing the symptoms knows as autism, second edition, PDF, e-book.
2. İbrahim Dikmen. Özel Eğitim 6. Baskıç Pegem Akademi Ankara 2012.
3. A.Kulaksızoğlu. Farklı gelişen çocuklar 2. Baskı, Psilon, İstanbul 2003.
4. N.Türker, A.Aydoğan. Özel eğitimde akademik becerilere hazırlık. Özgür yayınları, İstanbul, 2006.
5. V.Howard, B.Williams, C.Lepper. Özel gereksinimi olan küçük çocuklar Nobel yayım, 4. basımdan çeviri, 2011
6. N.Darıca, Ü.Abidoğlu, Ş.Gümüşçü. Otizm ve otistik çocuklar. Özgür yayınları, İstanbul, 2011

**Rəyçi: prof. L.Qasımova**

Göndərilib: 11.10.2020 Qəbul edilib: 13.10.2020